Martın 2-dən 5-dək Bakıdakı Rusiya Məlumat-Mədəniyyət Mərkəzində Təhsil Nazirliyi və Rusiya Federasiyasının Azərbaycandakı səfirliyinin birgə təşkilatçılığı ilə reallaşdırılan "Rus dilinin intensiv tədrisi" layihəsi çərçivəsində rus dili və ədəbiyyatı fənni üzrə "Rusiyanın tarixi ili"nə həsr olunmuş IV Olimpiada keçirilib.

Olimpiadanın ilk günü VI sinif, sonrakı günlərdə isə VII sinif şagirdləri bilik yarışına qoşulublar. Olimpiadada Bakı və Sumqayıtın ümumi təhsil müəssisələrinin şagirdləri iştirak ediblər.

Olimpiadanın fevralın 29-da keçirilmiş açılış mərasimində Rusiya Məlumat-Mədəniyyət Mərkəzinin direktoru, Təhsil Nazirliyinin və BMT-nin Azərbaycandakı nümayəndəliyinin əməkdaşları çıxış edərək şagirdlərə uğurlar arzulayıblar.

Daha sonra şagirdlərin ifasında mahnı və şeirlər dinlənilib.

Olimpiadanın növbəti mərhələsi 13-15 mart və 2-4 aprel 2012-ci il tarixlərində keçiriləcəkdir.